**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**Mingəçevir Turizm Kolleci**

**Publik Hüquqi Şəxsi**

# TƏLİM PROSESİNİN MONİTORİNQİNİN TƏŞKİLİNƏ DAİR

# TƏLİMAT

**Tədrisdə Keyfiyyət Təminatı şöbəsi**

**Mingəçevir - 2024**

# Mündəricat


1. Ümumi müddəalar ____ 3
2. Monitorinqin məqsədi və vəzifələri ____ 3
3. Monitorinqin təşkili ____ 4
4. Monitorinq komissiyasının tərkibi və təşkili ____ 4
5. Monitorinq iştirakçıları, onların hüquq və vəzifələri ____ 5
6. Yekun müddəalar ____ 6

*Təsdiq edirəm:*

***Mingəçevir Turizm Kollecinin***

***direktoru ____________Kamal Əhmədov***

***14 sentyabr 2024-cü il***

## TƏLİM PROSESİNİN MONİTORİNQİNİN TƏŞKİLİ

### I. Ümumi müddəalar

**1.1.** Təlim prosesinin monitorinqinin təşkilinin Qaydaları (bundan sonra, Qaydalar) Mingəçevir Turizm Kollecində (bundan sonra, Kollec)Təlim prosesinin monitorinqinin (bundan sonra, Monitorinq) təşkilati-hüquqi əsaslarını, Monitorinq prosesi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir.

**1.2.** Monitorinq Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Universitetin "Keyfiyyət təminatı" şöbəsinin Əsasnaməsinin (3.8 bəndində Monitorinq aparmaq və monitorinq nəticəsində hazırlanmış analitik təhlil hesabatlarını dərc etmək) və digər müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir. Monitorinq 2022/2023-cü tədris ilindən etibarən "Keyfiyyət təminatı" şöbəsinin təşkilatçılığı, Pedaqoji Şuranın 15.02.2023 tarixli 7 №li iclasında tələbələrin keyfiyyət və kəmiyyət göstəricilərinin aşağı olduğu cari məsələdə müzakirə olunmuş və Direktorun təsdiqi ilə qərara alınmışdır.

### II. Monitorinqin məqsədi və vəzifələri

**2.1.** Monitorinqin əsas məqsədi təlim prosesində müəllim heyəti tərəfindən tətbiq olunan təlim strategiyaları, metod və alətlərin qiymətləndirilməsilə təlim, tədris, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirilməsi istiqamətində tövsiyələrin verilməsi, eləcə də, akademik heyət arasında təcrübə mübadiləsinin aparılmasından ibarətdir.

**2.2.** Monitorinq aşağıdakı vəzifələrin həyata keçirilməsinə xidmət edir:

**2.2.1.** Tədris prosesinin obyektiv və səmərəli təşkil edilməsi ilə əlaqədar təlim prosesini qiymətləndirmək;

**2.2.2.** Müəllim heyətinin səriştələrinin artırılması məqsədilə təlim ehtiyaclarını müəyyənləşdirmək;

**2.2.3.** Tədris, təlim, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirməsini nəzərdə tutan təklifləri rəhbərliyə təqdim etmək.

### III. Monitorinqin təşkili

**3.1.** Monitorinq hər semestrin sonunda müəyyən edilmiş kriteriyalar əsasında aparılır və bu prosesdə müəllimlərin fəaliyyət göstəriciləri müxtəlif meyarlara uyğun qiymətləndirilir. Qiymətləndirmə metodik fəaliyyətin dərindən tədqiqi, açıq dərslərin təşkili, elmi məqalələrin hazırlanması və digər akademik fəaliyyətlər əsasında həyata keçirilir. Müəllimin ümumi göstəricisi isə topladığı balların nəticəsinə əsasən müəyyən edilir.

**3.2.** Monitorinq tədbirlərinin sayı hər semestr üzrə müəyyən edilmiş ən yüksək və ən aşağı

müvəffəqiyyət və keyfiyyət göstəricilərinə uyğun olaraq təşkil edilir.

**3.3.** Zərurət yarandığı halda təkrar monitorinq təşkil oluna bilər.

**3.4.** Monitorinq bilavasitə tədris prosesi çərçivəsində təşkil olunur.

**3.5.** Monitorinq dərs cədvəlinə uyğun mütamadi olaraq təşkil edilir.

**3.6.** Monitorinqin təşkili məqsədilə göstərilmiş qaydada Müəllimlərin kriteriyalar üzrə qiymətləndirilməsi qrafiki hazırlanmışdır (Əlavə 1).

## IV. Monitorinq komissiyasının tərkibi və təşkili

**4.1.** Monitorinq keçirilməsi məqsədilə Monitorinq komissiyası yaradılır və qiymətləndirmə onun tərəfindən həyata keçirilir.

**4.2.** Monitorinq komissiyasının tərkibi Tədris işləri üzrə direktor müavini, Tədris şöbəsinin müdiri, Keyfiyyət Təminatı şöbəsi, Fənn Birləşmə sədrləri və Metodistlərdən ibarət təşkil olunur.

**4.3.** Monitorinq komissiyası ən azı üç nəfər üzvdən təşkil olunur.

**4.4.** Komissiya üzvü olaraq iştirak edəcək akademik heyət üzvlərinə qoyulan tələblər aşağıdakı kimidir:

- Orta təhsil sahəsində beş illik Pedaqoji stajının olması;
- Kollecdə ən azı ştat və ya yarım ştat akademik heyət üzvü olması;
- monitorinq ediləcək fənnin tədris dilində Pedaqoji fəaliyyətlə məşğul olması;
- zərurət yarandığı halda digər təhsil müəssisələrindən də ekspertlərin cəlb olunması mümkündür.

**4.5.** Komissiya üzvləri monitorinqin təşkilinə dair təlimatlandırıldıqdan sonra monitorinqdə iştirak etmək hüququ qazanır.

**4.6.** Monitorinq dərs zamanı əyani şəkildə və ya videomüşahidə əsasında təşkil edilir.

**4.7.** Komissiya işini əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında aparır və monitorinqin keçirildiyi semestrdə yarımilin sonunda Pedaqoji Şuraya yekun hesabatı təqdim edir.

**4.8.** Komissiyanın səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə müəyyən edilir.

## V. Monitorinq iştirakçıları, onların hüquq və vəzifələri

**5.1.** Monitorinq iştirakçılarına aiddir: akademik heyət üzvləri (1 və ya 0.5 ştat vahidi olaraq Kollecdə azı bir il müəllim heyəti kimi çalışan şəxslər), Monitorinq komissiyası və tələbələr.

**5.2.** Komissiya üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

**5.2.1.** Monitorinq aparmaq məqsədilə video qeydiyyatı əldə etmək və monitorinq fəaliyyətinin tələb etdiyi digər imkanlardan istifadə etmək;

**5.2.2.** Monitorinq prosesinin səmərəli təşkili üçün rəy və təklifləri bildirmək;

**5.2.3.** Monitorinq aparılacaq fənnin sillabusu, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq.

**5.3.** Komissiya üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

**5.3.1.** Monitorinq təşkilinə dair təlimdə iştirak etmək;

**5.3.2.** Monitorinq olunacaq fənn üzrə sillabus, fənn proqramı və müvafiqtəhsil proqramı ilə tanış olmaq;

**5.3.3.** Meyarlar üzrə təqdim edilmiş blankda (Əlavə 2) təlim prosesi ilə əlaqədar qiymətləndirməni obyektiv və dolğun şəkildə aparmaq;

**5.3.4.** Monitorinqin yekununda qiymətləndirmə blankını doldurulmuş şəkildə Keyfiyyət təminatı şöbəsinə təqdim etmək;

**5.3.5.** Monitorinq komissiyası tərəfindən hazırlanacaq yekun hesabatının tərtibi prosesində iştirak etmək;

**5.3.6.** Qiymətləndirmə prosesinə aid məlumatları konfidensial saxlamaq;

**5.3.7.** Tədris prosesinin gedişatına və Monitorinq prosesinin subyektlərinə hörmətlə yanaşmaq.

**5.4.** Müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

**5.4.1.** Təlim prosesini sərbəst şəkildə təşkil etmək;

**5.4.2.** Monitorinqin keçirilməsi qaydaları haqqında məlumat almaq;

**5.4.3.** Monitorinq nəticələrinə dair komissiyanın rəyi ilə tanış olmaq;

**5.5.** Pedaqoji heyətin üzvləri Monitorinq prosesində komissiya tərəfindən təklif olunan tövsiyələrin icrasında iştirak etməlidir:

**5.6.** Monitorinq tədbirləri elə təşkil olunmalıdır ki, təlim prosesinin təbii nizamına maneə olmasın.

**VI. Yekun müddəalar**

**6.1.** Monitorinqin nəticələri FBK iclasında və Pedaqoji Şurada müzakirə edilir.

**6.2.** Monitorinq komissiyası Monitorinq nəticələrinə dair yekun hesabatı hazırlayır Pedaqoji Şurada təkmilləşdirmə üçün təklifləri verir.

**6.3.** Yekun hesabat əsasında Monitorinq prosesində iştirak Müəllim heyət üzvünə müvafiq təkmilləşdirmə istiqamətli məsləhət verilir, zərurət yarandığı halda təkrar monitorinq meyarlarında dəyişikliklər oluna bilər.

**Əlavə 1**

**Müəllimlərin kriteriyalar üzrə qiymətləndirilməsi**

| | | | |
|---|---|---|---|
| ***Şəhər/rayon Kollec*** | | ***Tarix*** | |
| ***FBK*** | | ***Qrup №*** | |
| ***Fənn*** | | ***Dərsin mövzusu*** | |
| ***Dərsdə iştirak edən tələbə sayı*** | | ***Dərsin növü*** | ☐ Mühazirə ☐ Məşğələ |
| ***Müəllimin adı və soyadı*** | | ***Müşahidəçinin adı və soyadı*** | |

## Qiymətləndirmədə istifadə olunan statik ballar

| № | Müəllimlər üçün qiymətləndirilmə kriteriyaları | Kriteriyalar üçün qiymətləndirilmə balı | Kriteriyalar üzrə müəllimlərin topladığı ballar | QEYD |
|---|---|---|---|---|
| 1 | Fənn proqramı | 2 | | |
| 2 | Dərs məşğələ jurnalı | 2 | | |
| 3 | Elektron versiyada yazılmış materialların tələbələrə çatdırılması | 2 | | |
| 4 | Sillabus | 2 | | |
| 5 | Müəllimin geyimi | 2 | | |
| 6 | Fərdi iş planı | 2 | | |
| | **Şəxsi iş qovluğunda olan sənədlər** | | | |
| 1 | Müəllimlərin Fərdi iş planındakı fəaliyyət istiqamətləri üzrə işlərin icra olunmasının hesabatda əks olunması. | 4 | | |
| 2 | Dərs proqramı ( metodik vəsait ) | 2 | | |
| 3 | Mühazirələr | 2 | | |
| 4 | Sillabuslar | 1 | | |
| 5 | İmtahan sualları | 1 | | |
| 6 | Sərbəst iş təqdimatı | 2 | | |
| 7 | Əlavə dərs vəsaitləri və qrup işi materialları | 2 | | |
| YEKUN : | | 26 | | |

## Qiymətləndirmədə istifadə olunan dinamik ballar

| № | Müəllimlər üçün qiymətləndirilmə kriteriyaları | | | QEYD |
|---|---|---|---|---|
| | **Dərs məşğələ jurnalı** | | | |
| 1 | Jurnalının səhifələrinin mavi (göy) rəngli qələmlə səliqəli, oxunaqlı və aydın xətlə yazılması; | 2 | | |
| | Keçirilən dərslərin mövzusu və digər qeydlər dərs müddətində jurnala yazılıb qeyd edilməsi; | 2 | | |
| | Keçirilən dərslərin mövzusu və tarixi fənn üzrə təsdiq olunmuş sillabuslara uyğun olması; | 2 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Jurnalın düzgün və səliqəli yazılması:** Jurnalda dərslərin keçirilməsi tarixində, mövzuların adında, tələbələrin dava miyyət və biliklərinin qiymətləndiril məsində düzəliş olunmasında, bayram günlərinin dərs günü kimi qeyd edilməsində, sillabusda bayram gününə düşən mövzunun adı sonrakı tarixdə mütləq qeyd edilməsinə diqqət etmək. | **4** | | | | |
| | **Fərdi iş planı** | | | | | |
| 2 | Təşkilati-metodiki işlər: (Kollecin təşkil etdiyi təlimlərdə,pedoqoji şuralarda, dəyirmi masalarda və konfranslarda iştirak etmək); | **5** | **2** | **0** | | |
| | | Davamlı iştirak edib | 4 | iştirak etməyib | | |
| | | | | | | |
| | Metodiki işlər; | 15-30 vərəq arası araşdı rılaraq geniş tərtib olunması | 15 vərəq sadə tərtib olunması | yoxdur | | |
| | | | | | | |
| 3 | Açıq dərslərin təşkilinə dair dərs materialları | Dərsin mövzu ətrafında mükəmməl qurulması | Gündəlik dərs kimi tərtib olunması | yoxdur | | |
| | | | | | | |
| 4 | Elmi məqalələr; | İmpakt faktorlu jurnallarda çap olunan məqalə | Beynəlxalq sertifikatlı elmi məqalə | Tezis | İxtisasa uyğun təlim sertifika tı | yox dur |
| | | **9** | **5** | **3** | **2** | **0** |
| | | | | | | |
| | **Sillabus** | | | | | |
| 5 | Qeyd olunan mövzuların fənn üzrə təsdiq olunmuş proqramlara uyğunluğu; | **2** | | | | |
| | Mövzuların peşə kompetensiyalarına uyğunlaşdırılması; | **2** | | | | |
| | Hər bir mövzu üzrə təlim nəticələrinin düzgün seçilməsi; | **2** | | | | |
| | Fənnin məqsəd və hədəfinin düzgün yazılması; | **2** | | | | |
| | Fənn üzrə qiymətləndirmə metodu. | **2** | | | | |
| **YEKUN :44** | | | | | | |

| s\s | Dərsin təşkili və gedişi | Qiymətləndirmə | | |
|---|---|---|---|---|
| | | əla | orta | zəif |
| | | 5 | 3 | 1 |
| 1 | Dərsin əvvəlində tələbələri fəaliyyətə stimullaşdırır (səmimi ünsiyyətə, işgüzar fəaliyyətə cəlb edən əhval-ruhiyyə yaratmaq və s.); | | | |
| 2 | Dərsin mövzu ətrafında qurulması; | | | |
| 3 | Müəllim dərsinin məqsədinə uyğun sual və tapşırıqlar verir, müxtəlif üsul və metodlardan istifadə etməklə tələbələrə mövzunu mənimsədir; | | | |
| 4 | Müəllim dərsdə əlavə resurslardan (internet, mövzu üzrə əyani vəsaitlər, xəritələr,cihazlar, şəkillər, müxtəlif ədəbiyyatlar və s.) istifadə edir; | | | |
| 5 | Tələbələr dərsdə fəaldırlar (verilən sualların cavablandırılmasında, qoyulan problemlərin həllində); | | | |
| 6 | Tələbələr mövzu üzrə şəxsi müşahidələrindən nümunələr gətirir, yaradıcı təklif və ideyalarla çıxış edirlər. | | | |
| **YEKUN : 30** | | | | |

| **Qeyd:** | |
|---|---|

| Müəyyən edilmiş bal | Qiymət | Peşə hazırlığı səviyyəsi barədə rəy (tövsiyə) |
|---|---|---|
| 91 - 100 | yüksək | Tələblərə tam cavab verir. Təcrübənin yayılması tövsiyə olunur. |
| 71 - 90 | yaxşı | Dərs kifayət qədər yaxşı səviyyədə keçirilmişdir. Çatışmazlıqlar azdır, ciddi əhəmiyyət kəsb etmir, aradan qaldırılması asandır. |
| 51 - 70 | kafi | Dərs müəyyən edilmiş tələblərə qismən cavab verir. Mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün təlim qabiliyyətlərinə dair təlimlərdə iştiraka ehtiyac vardır. |
| 50 və daha az | qeyri-kafi | Dərs müəyyən edilmiş tələblərə cavab vermir. |

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının “14” sentyabr 2024-cü il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).